**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**LALƏ MEHDİ qızı NAĞIYEVA**

# AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ AVİASİYANIN FƏALİYYƏTİNDƏ BEYNƏLXALQ HAVA HÜQUQ NORMALARININ REALİZASİYA PROBLEMLƏRİ

**İxtisas: 5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq**
**üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2018**

**Dissertasiya işi Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **hüquq üzrə elmlər doktoru, professor**
**İbrahim Oruc oğlu Quliyev**

**Rəsmi opponentlər:** **hüquq üzrə elmlər doktoru, professor**
**Leonid Dmitriyeviç Timçenko**

**hüquq üzrə elmlər doktoru, dosent**
**Şəhriyar İbrahim oğlu Əliyev**

**Aparıcı təşkilat:** **AMEA Hüquq və İnsan Haqları İnstitutunun Beynəlxalq hüquq şöbəsi**

Dissertasiya işinin müdafiəsi "___" "_____________" 2018-cı il tarixdə saat "_____" Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2018-ci il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Dissertasiya mövzusunun aktuallığı**. Müasir dünyada baş verən qlobal proseslər müxtəlif sahələr üzrə beynəlxalq əməkdaşlığın daima genişləndirilməsi və onun müvafiq hüquqi tənzimlənməsi zərurətini şərtləndirir. Beynəlxalq əməkdaşlığın belə vacib sahələrindən birini mülki aviasiya təşkil edir. Dünyada beynəlxalq hava daşımalarının həcminin artması tendensiyası müşahidə olunur və bu proses qanuni xarakter daşıyır. Belə ki, 41 ölkəni birləşdirən və əsas məqsədi vahid Avropa məkanı layihəsi çərçivəsində hava hərəkətının təşkili sisteminin tərtib edilməsi olan Avropa Hava Naviqasiyasının Təhlükəsizliyi Təşkilatının ("Eurocontrol") məruzəsinə uyğun olaraq, təkcə Avropa hava məkanında aviasiya axınının əhəmiyyətli dərəcədə artması gözlənilir. 2016-ci ildə 6 mln. olan, 2018-ci ildə isə 11 mln. olması gözlənilən illik uçuşların sayı 2040-ci ilə 16,2 mln. çatacaqdır.[1]

XX əsrin əvvəllərində aviasiyannın sürətli inkişafı digər ölkələrin əraziləri üzərindən uçuşların həyata keçirilməsinin hüquqi tənzmimlənməsi məsələlərini aktual etdi. Bu məsələləri tənzimləyən beynəlxalq normativ hüquqi aktların olmaması hərdən dövlətlər arasında beynəlxalq münasibətlər sistemini gərginləşdirən münaqişələrin yaranmasına gətirib çıxarırdı. Mülki aviasiya sahəsində beynəlxalq əməkdaşlığın inkişafı sərnişinlərin, yüklərin, baqajın daşınması, onların təhlükəsizliyinin beynəlxalq səviyyədə təmin edilməsi ilə bağlı məsələlərin hüquqi tənzimlənməsi zərurətini yaradırdı.

Qeyd etmək lazımdır ki qlobal miqyasda bu problemlərin bir və ya bir neçə ölkənin gücü ilə həll edilməsi mümkün olmadığına görə, aviadaşımaların müxtəlif növlərinin həyata keçirilməsi, hava hərəkətınə xidmət göstərməsi, aviadaşımaların sığortalanması, aviasiya təhlükəsizliyinin təmin edilməsi və onun pozulması ilə bağlı artan təhdidə qarşı mübarizənin gücləndirilməsi, zəruri hallarda yardımın göstərilməsi və hava gəmilərinin axtarışı, hava hadisələrinin araşdırılması və s. kimi beynəlxalq mülki aviasiyanın fəaliyyət növlərinin inkişafı qanuni olaraq bu prosesləri əlaqələndirən bir sıra beynəlxalq təşkilatların yaradılmasına gətirib çıxartdı. Beynəlxalq Mülki Aviasiya Təşkilatı (İKAO) bu sahədə əsas universal beynəlxalq təşkilatdır. Hər il İKAO və mülki aviasiya sahəsində digər

---

[1] European Aviation in 2040. Challenges of Growth // https://www.eurocontrol.int/sites/default/files/content/documents/official-documents/reports/challenges-of-growth-2018.pdf

beynəlxalq təşkilatlar, bu təşkilatlara üzv olan dövlətlər tərəfindən öz ölkələrinin mülki aviasiyasının fəaliyyətində tətbiqi məcburi olan çoxlu sayda normativ aktlar qəbul edirlər. Beynəlxalq Mülki Aviasiya Təşkilatına (İKAO), Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasına (BHNA), Avropa Mülki Aviasiya Konfransına (AMAK) üzv olan Azərbaycan Respublikası bu sahədə regional əməkdaşlıqda da fəal iştirak edir.

Azərbaycan Respublikasının Dövlətlərarası Aviasiya Komitəsində üzvlüyü hava nəqliyyatının fəaliyyəti ilə bağlı bir sıra məsələlərin həllinə imkan yaradır. Əlverişli strateji yerləşmə gücünə və Azərbaycanın avia-naviqasiya təchizatının müasir səviyyəsinə görə, bizim ölkənin hava məkanı beynəlxalq aviadaşımaların həyata keçirilməsi üçün getdikcə daha böyük əhəmiyyət kəsb etməyə başlayır. Təkcə 2018-ci ildə Azərbaycan üzərindən aviasiya hava axını artımı 9% təşkil etmişdir. Müqayisə üçün Avropa qitəsində illik aviasiya hava axını artımı orta hesabla 4% təşkil edir. Bizim ölkə üçün bu həm iqtisadi, həm də strateji fayda əldə etmək deməkdir. Nəticəsinə görə Azərbaycan "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin Avropa aeronaviqasiya təşkilatlarının direktorlar Komitəsinə seçildiyi 2018-ci ilin oktyabr ayında Brüssel şəhərində keçirilmiş Avropa ölkələri hava naviqasiyası strukturları rəhbərlərinin görüşünü də qeyd etmək olar. Bu orqana Böyük Britaniya, Almaniya, Avstriya, Belçika, İtaliya və s. Avropa ölkələrinin aeronaviqasiya strukturlarının baş direktorları daxildir və o strategiyaların tərtib edilməsi, qərarların qəbulu, tələblərin irəli sürülməsi və Avropa İttifaqı, Avropa Hava Naviqasiyasının Təhlükəsizliyi Təşkilatı, "vahid Avropa məkanı" tədqiqat proqramı, Uçuşların Təhlükəsizliyi üzrə Avropa Agentliyi, İKAO və Mülki Aeronaviqasiya Xidməti Təşkilatı qarşısında Avropa aeronaviqasiya strukturlarının mövqelərinin müdafiə edilməsi üzrə rəhbəredici orqanı qismində çıxış edir.

Yuxarıda qeyd edilənlərlə əlaqədar olaraq, Azərbaycan Respublikasında mülki aviasiyanın fəaliyyətində beynəlxalq hüquq normaların realizasiyası və onların Azərbaycan Respublikasının milli hüquq sisteminə implementasiya olunması problemi həddindən artıq aktualdır.

Hazırkı tədqiqatın aktuallığı aşağıdakı prinsipial məsələlərlə təsdiqlənir. Birincisi, Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hüquq normalarının həyata keçirilməsi sahəsində hələ də bir sıra praktiki və nəzəri xarakterli problemlər həll edilməmiş qalır. Xüsusilə, mülki aviasiya fəaliyyətini tənzimləyən beynəlxalq hüquq normalarının təsnifatına vahid yanaşma mövcud deyil, Azərbaycan Respublikasında mülki aviasiya fəaliyyətində beynəlxalq hüquq normalarının həyata keçirilməsi ilə bağlı konkret problemlər, onların yaranması səbəbləri və

nəticələri müəyyən edilməyib, onların həlli yolları tədqiq edilməyib. Qeyd olunan amillər aparılan elmi işin vacibliyinə və aktuallığına dəlalət edir. İkincisi, Azərbaycan Respublikasının iqtisadiyyatının fəal inkişaf etməsi faktını nəzərə alaraq, mülki aviasiyanın fəaliyyətində beynəlxalq standartlara əməl edilməsi, milli qanunvericiliyin və hüquqtətbiqetmə praktikasının Beynəlxalq Mülki Aviasiya Konvensiyasının tələblərinə uyğunlaşdırılması vacib əhəmiyyət kəsb edir. Bu da, öz növbəsində, nəinki aviasiya hadisələrinin və qəza hallarının qarşısını almağa, mülki aviasiyanın təhlükəsizliyini təmin etməyə, həm də bu sahədə beynəlxalq əməkdaşlığı genişləndirməyə imkan verəcəkdir. Qeyd olunan amillər elmi işin mövzüsunun aktuallığına dəlalət edir.

**Problemin elmi işlənmə dərəcəsi.** Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hüquq normaların həyata keçirilməsi problemi, xüsusilə də, son zamanlarda, çox vacib nəzəri və praktiki əhəmiyyət kəsb edir. Hüquq doktrinasında bu problemin həlli birmənalı şəkildə öz əksini tapmayıb. Qeyd etmək lazımdır ki, ölkə beynəlxalq hüquq elmində L.H. Hüseynov, R.F.Məmmədov kimi alimlər beynəlxalq hava hüququnu beynəlxalq hüququn bir hissəsi kimi ümumi baxımdan araşdırmışlar. Professor İ.O. Quliyevin beynəlxalq hava hüququ sahəsində, xüsusən də beynəlxalq hava hüququnun beynəlxalq hüquq sisteminin bir sahəsi kimi, və həmdə “hava azadlığı” institutunun xüsusiyyətlərinin müəyyən edilməsinə həsr edilmiş əsərlərini qeyd etmək lazımdır. E.A.Əliyev öz əsərlərində beynəlxalq hava daşımalarının hüquqi tənzimlənməsinin bir sıra məsələlərini tədqiq etmişdir. Beynəlxalq hava hüququnun müxtəlif aspektlərinin tədqiqinə, bu sahədə beynəlxalq hüquq normaların təbiətinin və xarakterinin təhlil edilməsinə, mülki aviasiya sahəsində İKAO və digər beynəlxalq təşkilatların fəaliyyətinin hüquqi tənzimlənməsinin xüsusiyyətlərinin araşdırılmasına həsr edilmiş F.İ. Qurbanovanın “Beynəlxalq hava hüququ normaları və Azərbaycan qanunvericiliyi (qarşılıqlı əlaqələr məsələləri)”, Q.Z.Bəşirovanın “Azərbaycan Respublikasında beynəlxalq hava əlaqələrin hüquqi tənzimlənməsi problemləri”, S.X. Mürşüdovanın “Azərbaycan Respublikasında mülki aviasiya təhlükəsizliyinin konstitusiya-hüquqi təminatları”, A.A. Məmmədovun “Azərbaycan Respublikasında mülki aviasiyanın fəaliyyətində beynəlxalq hüquq normalarının tətbiqi problemləri”, Z.Z.Xəlilovanın “Beynəlxalq hava hüququnda “hava azadlıqlarının” nəzəri və praktiki problemləri” adlı əsərlərini də qeyd etmək lazımdır. Lakin bu işlərdə Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hüquq normalarının realizasiyası problemləri araşdırılmayıb və bu sahədə müəyyən boşluq var. Beləliklə, beynəlxalq

hüquq normalarının Azərbaycan Respublikasının milli qanunvericiliyinə implementasiya qaydasının öyrənilməsinə və tədqiq edilməsinə zərurət duyulur. Hazırki tədqiqat işi müəyyən dərəcədə bu boşluğun aradan qaldırılmasına yönəlib.

**Dissertasiya tədqiqatının obyektini** mülki aviasiya sahəsində beynəlxalq hüquq normalarının həyata keçirilməsində yaranan beynəlxalq hüquq münasibətləri təşkil edir.

**Dissertasiya tədqiqatının predmetini** Azərbaycan Respublikasının mülki aviasiyanın fəaliyyətində beynəlxalq hava hüququ normalarının həyata keçirilməsi problemləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya tədqiqatının məqsədi Azərbaycan Respublikasının mülki aviasiyanın fəaliyyətində beynəlxalq hava hüququ normalarının həyata keçirilməsi probleminin nəzəri cəhətdən tərtib edilməsindən ibarətdir. Bu məqsədə nail olmaq üçün dissertasiya işində aşağıdakı **məsələlər** qoyulmuşdur:

- beynəlxalq hüquq tənzimlənməsinin obyekti qismində mülki aviasiya fəaliyyətinin anlayışını və məzmununu müəyyən etmək;
- mülki aviasiyanı tənzimləyən beynəlxalq hüquq normalarının anlayışını, hüquqi təbiətini və növlərini tədqiq etmək;
- mülki aviasiyanı tənzimləyən beynəlxalq hava hüququ normalarının xüsusiyyətlərini səciyyələndirmək;
- müxtəlif ölkələrin mülki aviasiyasının fəaliyyətinin tənzimlənməsində beynəlxalq hüquq normalarının və standartlarının rolunu və əhəmiyyətini müəyyən etmək;
- Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hava hüququ normalarının həyata keçirilməsinin təmin edilməsinin əsas formalarını və vasitələrini tədqiq etmək;
- mülki aviasiya fəaliyyətində normaların və standartların pozulmasına görə beynəlxalq məsuliyyət anlayışını ifadə etmək;
- mülki aviasiya fəaliyyətində beynəlxalq hüquq standartlarının pozulmasına görə məsuliyyəti tədqiq etmək;
- Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hava hüququ normalarının həyata keçirilməsinin təmin edilməsi mexanizmlərini müəyyən etmək;
- Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hüquq standartlarının həyata keçirilməsində problemlərin yaranmasının əsas səbəblərini tədqiq etmək;
- Azərbaycan Respublikasının mülki aviasiyasının praktiki fəaliyyətində beynəlxalq hüquq normalarının həyata keçirilməsi qaydasının

təkmilləşdirilməsinə yönəlmiş tövsiyələr hazırlamaq.

**Tədqiqatın metodoloji əsasını** ümumi elmi dərketmə metodları təşkil edir: sistemli-funksional, formal-məntiqi, müqayisəli-hüquqi, dialektik, statistik, modelləşdirmə və proqnozlaşdırma metodu və s.

**Tədqiqatın nəzəri əsasları.** Bu dissertasiya üzərində işləmək prosesində müəllif bir sıra ölkə və xarici hüquqşünas-alimlərin əsərlərindən istifadə etmişdir, onların sırasında L.A. Aleksidzeni, S.F. Əliyevi, E.A Əliyevi, V.Q. Afanasyevi, Y.M. Balaxovskiyi, A.A. Batalovu, V.S. Belıxı, V.E. Brusilovskiyi, V.Q. Butkeviçi, A.N. Vereşaqini, M.M. Volkovu, Y.M. Volinskiy-Bosmanovu, R.O. Gerasimovu, V.S. Qryaznovu, L.H. Hüseynovu, Q.M. Danilenkonu, V.N. Dejkini, N.V. Zaxarovanı, R.F.Klimeki, Y.M. Kolosovu, İ. O.Quliyevi, İ.İ. Lukaşuku, A.A. Məmmədovu, R.F. Məmmədovu, S.X. Mürşüdovanı, P.Malançuku, A. Ostu, A.Y. Pidjakovu, D.M. Saidovu, T.L. Solovyovanı, Z.Z. Xəlilovu, Q.R. Həlimovanı, L.N. Şestakovu, M.Şounu, Y.A. Yurkini, S.S. Yuryevanı və digərlərini qeyd etmək lazımdır.

Dissertasiyada Azərbaycan alimlərinin və həmçinin digər ölkələrin alimlərinin elmi işlərinə arxalanaraq və bununla yanaşı beynəlxalq hüquqi sazişləri, aktları və sənədləri istifadə edərək ilk dəfə olaraq Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hava hüquq normalarının həyata keçirilməsi probleminin sistemli şəkildə təhlil aparılmasına cəhd edilmişdir.

**Tədqiqatın normativ bazasını** beynəlxalq mülki aviasiya haqqında Konvensiya (BMAK) və ona olan Əlavələr, mülki aviasiya sahəsində beynəlxalq əməkdaşlıq haqqında ikitərəfli və çoxtərəfli sazişlər, İKAO-nun reqlamentləri və digər aktları, Azərbaycan Respublikasının və digər dövlətlərin milli qanunvericiliyi təşkil edir.

**Tədqiqatın empirik bazasını** bu sahədə İKAO və digər beynəlxalq təşkilatların fəaliyyətinin ümumiləşdirilmiş təcrübəsi, rəsmi statistik məlumatlar təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hüquq normalarının həyata keçirilməsi problemlərinin ilk kompleks xarakterli araşdırmasıdır. Tədqiqatın nəticələrinin elmi yeniliyini dissertasiya üzərində işlənilən zaman əldə edilmiş bir sıra müddəalar və nəticələr səciyyələndirir.

**Müdafiəyə aşağıdakı elmi müddəalar və nəticələr çıxardılır:**

1. Azərbaycan Respublikasının mülki aviasiya sahəsində fəaliyyət - hava gəmilərinin istismarı yolu ilə ölkəmizin iqtisadi fəaliyyətinin müxtəlif sahələrində olan ehtiyaclarının təmin edilməsi məqsədilə hava məkanından

istifadə etməyə yönələn və qanunvericiliyə uyğun qaydada iştirakçılar tərəfindən icazə sənədi əsasında həyata keçirilən tədbirlər, işlər növləri sistemidir. Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hüquq normalarının realizasiyası - həm ölkə ərazisində, həm də onun hüdudlarından kənarda həyata keçirilən Azərbaycan Respublikasının mülki aviasiyasının praktiki fəaliyyətində aviasiya təhlükəsizliyi, uçuşların təhlükəsizliyi, uçuş qaydaları sahəsində beynəlxalq standartların müddəalarının və digər normalarının həyata keçirilməsinə yönələn ölkəmizin səlahiyyətli dövlət orqanlarının fəaliyyət növüdür.

2. Mülki aviasiya fəaliyyətinin komponentləri (ünsürləri) müəyyən bir meyar üzrə vahid eyninövlü qruplara birləşdirilə bilən eynitipli hərəkətlərdir. Mülki aviasiya fəaliyyətinin əsas ünsürləri aşağıdakı kimi təsnif olunurlar: *əsas ünsürlər* (hava daşımalarının həyata keçirilməsi, hava hərəkətinin təşkili və idarə olunması); *köməkçi ünsürlər* (hava nəqliyyatı xidmətləri, sığorta, aviasiya təhlükəsizliyinin təmin edilməsi, hava gəmilərinin axtarışı və yardım göstərilməsi, hava qəzalarının araşdırılması) və *xüsusi ünsürlər* (kənd təsərrüfatında, tikintidə, topoqrafik fəaliyyətdə, geoloji kəşfiyyatda və s. uçuşlara xidmət göstərilməsi və onların təmin edilməsi).

3. Mülki aviasiyada fəaliyyətin məzmununu hava əməliyyatlarının üç əsas növü təşkil edir. Onlara beynəlxalq hüquq normalarının gücü yayılan belə əməliyyatları aşağıdakı kimi təsnif etmək olar: hava sərnişin daşımaları, eləcə də, belə uçuşlara xidmət göstərilməsi ilə bağlı olan aviasiya işləri; belə uçuşlara xidmət göstərilməsi üzrə hava əməliyyatlarının geniş spektri ilə əhatə olunan beynəlxalq yük, poçt daşımaları və aviasiya işləri; ümumi təyinatlı idman və turist aviasiyası.

4. Mülki aviasiyanın beynəlxalq hüquqi tənzimlənməsinin xüsusiyyətləri: Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə öz əksini tapmış və həyata keçirilməsi məcburi olan beynəlxalq normaların, standartların və tövsiyələrin mövcudluğunda; milli hava suvereniteti nəzərə alınmaqla beynəlxalq normaların, standartların və tövsiyələrin həyata keçirilməsində; Azərbaycan Respublikasının qanunvericiliyinə daxil olan (Konstitusiya və referendumda qəbul olunan aktlar istisna olmaqla) normativ hüquqi aktlarla ziddiyyətlər yarandığı hallarda milli qanunvericilik müddəaları qarşısında üstün qüvvəyə malik olan Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə əks olunmuş beynəlxalq normalar və standartlarda ifadə olunur.

5. Mülki aviasiyanın fəaliyyətini tənzimləyən beynəlxalq hüquq normalarını belə təsnif olunurlar: *fəaliyyət sahəsindən asılı olaraq,* hava gəmilərinin və xidmət göstərən qurğuların və ərazilərin (hava limanları,

uçuş zolaqları və s.) fiziki xarakteristikasını və texniki tələblərini əks etdirən normalar; hava gəmilərinin və digər obyektlərin qeydiyyatı və eyniləşdirilməsinə dair tələblər; *subyektlərdən asılı olaraq*, beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan normalar (konvensiyalar, xartiyalar protokollar); dövlətlər tərəfindən qəbul olunan normalar (ikitərəfli, regional və çoxtərəfli müqavilələr): dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan normalar (ikitərəfli və çoxtərəfli sazişlər); bu sahədə yaranan *hüquq münasibətlərinin növlərindən asılı olaraq*, hava uçuşları qaydalarının müəyyən edilməsinə və onların həyata keçirilməsi qaydalarına; beynəlxalq uçuşların, ayrı-ayrı dövlətlərin hava məkanı ərazisi üzərindən uçuşların, tranzit uçuşların və s. təhlükəsizliyinin təmin edilməsi.

6. Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hüquq normalarının həyata keçirilməsi beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının milli hüquq sisteminə implementasiya olunması yolu ilə baş verir və müxtəlif üsullarla həyata keçirilə bilər. Belə normalar öz əslini beynəlxalq hüquqdan götürmüş milli-hüquq normalarının xüsusi növünü təşkil edir. Nəzərdən keçirilən sahədə beynəlxalq hüquq normalarının realizasiyasını təmin edən vasitələrə: hüquqtətbiqetmə aktlarını, beynəlxalq hüquq normalarının təfsiri və konkretləşdirilməsi daxil olmaqla; təşkilatı vasitələri; nəzarət vasitələrini; məcburedici tədbirləri, o cümlədən beynəlxalq hüquqi məsuliyyəti aid etmək olar.

7. Mülki aviasiyada beynəlxalq standartların pozulmasına görə məsuliyyətlərin xüsusiyyətləri müəyyən edilmişdir. Bunlara: mənfi nəticələrin baş verib-verməməsindən asılı olmayaraq beynəlxalq qaydaları pozan dövlətlərə qarşı məsuliyyətin tətbiq olunması; şəxslərə qarşı isə – yalnız zərərçəkən tərəfin həyatına, sağlamlığına və ya mülkünə zərər vurulduğu təqdirdə tətbiq olunması; cinayət törədildiyi zaman "qanun pozucusunu cəzalandır və ya təhvil ver" prinsipi işləyir, bu da o deməkdir ki, ərazisində mülki aviasiya sahəsində cinayət baş vermiş dövlət milli qanunvericiliyinə əsasən cinayətkara qarşı cəza tədbirlərini tətbiq etməli və ya onu zərərçəkən tərəfə təhvil verməli olması; aiddir.

8. Mülki aviasiyanın fəaliyyətində beynəlxalq hüquq standartlarının yerinə yetirilməməsinin və ya lazımi qaydada yerinə yetirilməməsinin mənfi nəticələri müəyyən edilmişdir. Bunlara: aviasiya hadisələrinə və qəzalarına səbəb ola bilən aviasiya təhlükəsizliyi və uçuş təhlükəsizliyi rejiminin pozulması; gələcəkdə dövlətlərə qarşı məhdudiyyətlərin qoyulması və ya sanksiyaların tətbiq edilməsi beynəlxalq-hüquq müdafiəsi vasitələrindən istifadə edilməsinin mümkün olmamasına səbəb ola bilər; mülki aviasiya sahəsində ölkələr arasında əməkdaşlığın məhdudlaşdırılması;

beynəlxalq mülki aviasiyada iştirakdan xaric etmə; aiddir.

9. Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq-hüquqi normaların həyata keçirilməsi qaydasının təkmilləşdirilməsinə dair aşağıdakı təkliflər işlənib hazırlanmışdır. Bunlara: Azərbaycan Respublikasında hava nəqliyyatının inkişafı milli konsepsiyasının qəbul edilməsi; Azərbaycan Respublikasının qanunvericiliyində mülki aviasiyasının faəliyyətinin tənzimlənməsi sahəsində beynəlxalq normaların implementasiyası mərhələli proqramının tərtib olunması; mülki aviasiya fəaliyyətinə xüsusi sektorunun cəlb edilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət proqramının qəbulu; mülki aviasiyanın inkişaf etdirilməsinə sərmayələrin, o cümlədən xarici sərmayələrin, cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması; hava qanunvericiliyi ilə tənzimlənən münasibətlərin məzmunu, onun pozulmasına görə məsuliyyət, hava məkanından istifadə olunmasının, aviasiya fəaliyyətiin tənzimlənməsi, aviasiya təhlükəsizliyi məsələləri, hava daşımaları və s. kompleks şəkildə müəyyən olunan Azərbaycan Respublikasının milli qanunvericilik aktının qəbul edilməsi; üzrə təkliflər daxildir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, hazırki dissertasiya işi Azərbaycan Respublikası mülki aviasiyasının fəaliyyətində beynəlxalq hüquq normalarının realizasiyası probleminin nəzəri cəhətdən tədqiq edilməsinə həsr edilmiş ölkə beynəlxalq hüquq elmində ilk monoqrafik xarakterli tədqiqatdır. Işdə öz əksini tapmış nəticələr və tövsiyələr Azərbaycan Milli Aviasiya Akademiyasının elmi-tədqiqat və təlim-maarifləndirmə fəaliyyətində uğurla istifadə edilə bilər.

**İşin praktiki əhəmiyyəti** ondan ibarətdir ki, hazırki tədqiqatda əldə edilmiş nəticələr normayaradıcılıq prosesində və hüquqtətbiqetmə praktikasında istifadə edilə bilər. Hazırkı tədqiqat işi həmçinin elmi-pedaqoji fəaliyyətdə əlavə material qismində və, bununla yanaşı, “Beynəlxalq hüquq”, “Hava hüququ”, “Nəqliyyat hüququ” və digər yaxın sahələrə dair kurslar üzrə dərsliklərin, dərs vəsaitlərin və tədris-metodiki proqramların hazırlanmasında istifadə edilə bilər.

**Dissertasiyanın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrasında hazırlanmış, müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir. Dissertasiyada tərtib edilmiş və ifadə olunmuş əsas nəzəri müddəalar, nəticələr və tövsiyələr dissertant tərəfindən beynəlxalq, milli və regional elmi-praktiki konfranslarda məruzə edilmişdir. Dissertasiya tədqiqatının əsas müddəaları həmçinin müəllifin ölkə və xarici elmi jurnallarda dərc edilmiş elmi məqalələrində də öz əksini tapmışdır.

**Dissertasiyanın** strukturuna giriş hissəsi, özündə 9 paraqrafı birləşdirən üç fəsil, nəticə hissəsi və dissertasiya işinin yazılmasında istifadə edilmiş ədəbiyyat siyahısı daxildir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun aktuallığı əsaslandırılmış, işin məqsədi və əsas vəzifələri, metodoloji əsası müəyyən edilmiş, bu problemin işlənmə dərəcəsi göstərilmiş, dissertasiyanın elmi yeniliyi, müdafiəyə çıxarılan əsas müddəalar ifadə edilmiş, əldə edilən nəticələrin praktiki əhəmiyyəti, tədqiqatın elmi aprobasiyasının nəticələri və dissertasiyanın strukturu göstərilmişdir.

**I fəsil - "Mülki aviasiyanın beynəlxalq-hüquqi tənzimlənməsinin ümumi xarakteristikası"** üç yarımfəsildən ibarətdir.

***"Mülki aviasiya fəaliyyətinin anlayışı və ünsürləri beynəlxalq-hüquqi tənzimləmə obyekti kimi"*** adlanan ***birinci yarımfəsildə*** dissertant tərəfindən müəyyən edilmişdir ki, mülki aviasiya sahəsində fəaliyyət hava gəmilərinin istismarı yolu ilə ölkəmizin iqtisadi fəaliyyətinin müxtəlif sahələrində olan ehtiyaclarının təmin edilməsi məqsədilə hava məkanından istifadə etməyə yönələn və qanunvericiliyə uyğun qaydada iştirakçılar tərəfindən həyata keçirilən tədbirlər, işlər növləri sistemidir. Bu anlayışa əsasən tədqiqat işində mülki aviasiyanın strukturunu təşkil edən mülki aviasiya növlərinin və həmçinin onun tərkib ünsürlərinın fərqləndirilməsinin zəruriliyi əsaslandırılmışdır.

Sübut edilmişdir ki, mülki aviasiyada fəaliyyətin ünsürləri kimi müəyyən meyar altında bir qrupa birləşdirilə bilən hərəkətlər çıxış edir. Müəllifin fikrincə, mülki aviasiyada üç əsas fəaliyyət ünsürləri qrupu mövcuddur: əsas, yardımçı və xüsusi fəaliyyət.

Mülki aviasiyada fəaliyyət aşağıdakı hallarda beynəlxalq-hüquqi tənzimləmə obyekti ola bilər: əgər mülki aviasiyanın hava gəmilərinin uçuşları həmin hava gəmisinin istifadəçisi-dövlətinin hava məkanının hüdudlarından kənarda həyata keçirilirsə; hava nəqliyyat vasitəsinin istifadəçisi-dövlət mülki aviasiya sahəsində bir və ya bir neçə beynəlxalq konvensiyaya üzv olduğunda; əgər hava uçuşlarının iştirakçıları, o cümlədən, sərnişinləri hava nəqliyyat vasitəsinin istifadəçisi-dövlətə aid xarici vətəndaşlardırsa.

***"Mülki aviasiyanın tənzimlənməsinin beynəlxalq-hüquqi normalarının anlayışı, hüquqi təbiəti və növləri"*** adlanan ***ikinci yarımfəsil*** mülki aviasiyanın tənzimlənməsinin beynəlxalq-hüquqi normalarının xüsusiyyətlərinin və təsnifatının tədqiqinə həsr olunub.

Dissertant mülki aviasiyanın beynəlxalq hüquqi tənzimlənməsinin səciyyəvi xüsusiyyətlərinə aşağıdakıları aid etmişdir. Belə tənzimlənmə: beynəlxalq standartlar və beynəlxalq tövsiyələr formasında həyata keçirilir; milli hava suverenliyinin qorunmasını və təminatını nəzərə alaraq həyata keçirilir; beynəlxalq standartlar milli qanunvericiliyə implementasiya olunduqda onun tərkib hissəsi kimi çıxış edir.

Dissertant mülki aviasiyanın fəaliyyətini tənzimləyən beynəlxalq hüquq normalarını üç meyar üzrə: təsiretmə sahəsindən asılı olaraq; subyektlərdən asılı olaraq; hüquq münasibətlərinin növlərindən asılı olaraq təsnifatının aparılmasını təklif etmişdir. Müəllif belə bir nəticəyə gəlmişdir ki, mülki aviasiyanın beynəlxalq-hüquqi tənzimlənməsi müxtəlif növ beynəlxalq normalar vasitəsilə həyata keçirilir ki, bunların da arasında ən mərkəzi yeri norma-qaydalar, norma-standartlar və norma-prinsiplər tutur. Eyni zamanda, müəllifin fikrincə, mülki aviasiyanın beynəlxalq hüquqi tənzimlənməsində müəyyən sistemsizlik mövcüddur, və buna görə də müvafiq beynəlxalq sənədlərin və aktların sistemləşdirilməsi və unifikasiya edilməsi məqsədəuyğundur.

***«Dünya ölkələrinin mülki aviasiyasının fəaliyyətində beynəlxalq standartların rolu və əhəmiyyəti»*** adlı ***üçüncü yarımfəsildə*** dissertant qeyd edir ki, mülki aviasiyasının fəaliyyətinin beynəlxalq hüquqi tənzimlənməsinin məqsədi beynəlxalq mülki aviasiya sahəsində dəyişən tələblər nəzərə alınmaqla beynəlxalq hava hüququ normalarının tərtib edilməsindən, onlara əməl edilməsindən və onların təkmilləşdirilməsindən ibarətdir. Bunun üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi təklif olunur: İKAO-nun strateji məqsədlərini dəstəkləmək məqsədilə beynəlxalq hüquq sənədlərini tərtib etmək; beynəlxalq hava hüququ sənədlərinin dövlətlər tərəfindən ratifikasiyasını təşviq etmək; mülki aviasiya sahəsində mübahisələrin tənzimlənməsi mexanizmlərini təmin etmək; dövlətləri onların milli hüquq sistemində tətbiq edilməsi üçün nümunəvi aktlarla təmin etmək.[2] Mülki aviasiyanın fəaliyyətinin tənzimlənməsinə yönəlmiş beynəlxalq hüquq normaları ən böyük əhəmiyyətə uçuşların təhlükəsizliyinin gücləndirilməsində malikdir. Bu bu da aşağıdakı tədbirlərin realizasiyası vasitəsilə həyata keçirilir: uçuşların təhlükəsizliyi sahəsində mövcud olan risk amillərinin müəyyən edilməsi, yaranan riskləri aradan qaldırmaq üçün qlobal miqyasda effektiv və müvafiq tədbirlərin tərtib və tətbiq

---

[2] The International Civil Aviation Organization (ICAO) // https://www.icao.int/Pages/default.aspx

edilməsi; İKAO-nun müddəalarının, onların realizasiyasının gedişatı üzərində daimi nəzarət vasitəsilə İKAO müddəalarının həyata keçirilməsinin təmin edilməsi; uçuşların təhlükəsizliyinin təmin edilməsi üzərində nəzarətin təşkil edilməsi ilə bağlı yoxlamaların həyata keçirilməsi; regional və subregional səviyyələrdə uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarət üzrə təşkilatların yaradılması vasitəsilə çatışmazlıqların aradan qaldırılmasında dövlətlərə yardım etmək; uçuşların təhlükəsizliyinin səviyyəsinə qarşılıqlı inamın möhkəmləndirilməsinə kömək etmək üçün dövlətlər arasında informasıya mübadiləsini təşviq etmə və s.

**II fəsil - "Azərbaycan Respublikasının mülki aviasiya fəaliyyətində beynəlxalq hava-hüquq normalarının həyata keçirilməsinin xüsusiyyətləri"** üç yarımfəsildən ibarətdir.

***"Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hava-hüquq normalarının realizasiya formaları"*** adlı ***birinci yarımfəsildə*** Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hava-hüquq normalarının realizasiya formaları tədqiq edilir.

Dissertant əsaslandırmışdır ki "realizasiya" təkcə "tətbiqetmə" yox, həmçinin digər formaları da (icra, istifadə və s.) əhatə edir. Dissertant qeyd edir ki, beynəlxalq hüquq normalarının səciyyəvi əlamətləri aşağıdakılardan ibarətdir: səlahiyyətli subyektlərin hüquq tətbiqedici tədbirləri vasitəsilə həyata keçirilməsi, məsələn normativ-hüquqi aktların qəbul edilməsi; fəaliyyətin aktiv növlərindən istifadə edilməsi; onların dövlət hakimiyyət orqanlarının səlahiyyətlərinin köməyi ilə həyata keçirilməsi.

Bu xüsusiyyətlər əsasında dissertant tərəfindən Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hava-hüquq normalarının realizasiyasının definisiyası verilmişdir. Bu definisiyaya əsasən həm onun ərazisində, həm də onun hüdudlarından kənarda həyata keçirilən Azərbaycan Respublikasının mülki aviasiyasının praktiki fəaliyyətində aviasiya təhlükəsizliyi, uçuşların təhlükəsizliyi beynəlxalq standartlarının və qaydalarının və digər normaların tətbiq edilməsinə yönəlmiş səlahiyyətli dövlət orqanlarının fəaliyyəti başa düşülür.

Dissertant müəyyən edir ki milli hüquq sistemində beynəlxalq hüquq normalarının realizasiyası forması - hüquqi münasibətlərdə bu cür normaların tətbiqi üsuludur, bu cür tətbiqin həyata keçirilməsinə kömək edən vasitələrin məcmusudur.

Milli hüquq sistemlərində beynəlxalq normalarının realizasiyası həmişə onların məcburi olmasına dövlətin müəyyən edilmiş formada ifadə olunmuş razılıq bildirməsi yolu ilə bağlıdır. Bundan əlavə, milli qanunvericiliyin iyerarxiyasında beynəlxalq normaların yerini dövlət özü

müstəqil şəkildə müəyyənləşdirir. Aparılmış elmi təhlil əsasında dissertant belə bir nəticəyə gəlir ki, beynəlxalq hava-hüquq normalarının realizasiyası formalarından hər birisi beynəlxalq normaların milli qanunvericiliyə tətbiq edilməsində müəyyən vasitələrdən istifadə etməyi nəzərdə tutur: transformasiyanı; resepsiyanı; implementasiyanı.

***"Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hava-hüquq normalarının realizasiyasını təmin edən vasitələr"*** adlı ***ikinci yarımfəsil*** Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hava-hüquq normalarının realizasiyasını təmin edən vasitələrin müəyyən edilməsinə və səciyyələndirilməsinə həsr edilib. Belə vasitələr Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyət praktikasına müvafiq normaların tətbiq edilməsi üçün Azərbaycan Respublikasının səlahiyyətli dövlət orqanları tərəfindən istifadə olunan üsullar və vasitələr sistemidir.

Dissertant tərəfindən Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hüquq normalarının tətbiq edilməsini təmin edən vasitələrin hərtərəfli təhlili aparılmışdır. Belə vasitələrə aşağıdakılar aiddir: hüquqtətbiqedici aktlar, beynəlxalq hüquq normalarının təfsiri daxil olmaqla; təşkilatı vasitələr; nəzarət vasitələri; məcburedici tədbirlər, o cümlədən beynəlxalq-hüquqi məsuliyyət.

Dissertant dəlillərlə göstərir ki, hüquqtətbiqedici aktın xüsusiyyəti ondan ibarətdir ki, o, fərdiləşdirilmiş xarakter daşımır, çünki tətbiq edilməli olan normalar beynəlxalq müqavilənin tərəflərinə ünvanlanır. Dissertasiya tədqiqatında beynəlxalq aktların tətbiqi üçün beynəlxalq aktların müxtəlif müddəalarının təfsirini və ya aydınlaşdırılmasını əks etdirən əlavə beynəlxalq müqavilələrin qəbul edilməsinin mümkünlüyü əsaslandırılmışdır. Məsələn, axtarış və xilasetmənin həyata keçirilməsinə dair müddəaların dəqiqləşdirilməsi üçün İKAO tərəfindən BMAK-ya "Axtarış və xilasetmə" adlı Qoşma sənədi  əlavə edilmişdir. Bununla belə, beynəlxalq normaların milli qanunvericilikdə implementasiyası üçün dövlət səviyyəsində hüquqtətbiqedici aktların qəbulu tələb olunur.

***"Mülki aviasiyada beynəlxalq hüquq standartlarının pozulmasına görə məsuliyyətin anlayışı və xüsusiyyətləri"*** adlı ***üçüncü yarımfəsil*** mülki aviasiya sahəsində beynəlxalq hüquq normalarının pozulmasına görə məsuliyyət anlayışı və onun xüsusiyyətləri müəyyən edilir. Dissertasiyada belə bir müddəa əsaslandırılır ki, mülki aviasiya fəaliyyətində beynəlxalq standarltarın pozulmasına görə məsuliyyət – elə bir hüquqi məsuliyyət növüdür ki, ona, neqativ nəticələrin baş verməsindən asılı olmayaraq, mülki aviasiya sahəsində standartları tənzimləyən beynəlxalq aktların tələblərini

pozmuş dövlətlərin, həmçinin, zərərçəkənlərin həyatına, sağlamlığına və ya əmlakına zərərvurma ilə nəticələn bu sahədə hüquq pozuntusuna yol vermiş şəxslərin cəlb oluna bilməsini nəzərdə tutan hüquq məsuliyyətin bir növüdür.

Dissertantın fikrincə, mülki aviasiya fəaliyyətində beynəlxalq standartların pozulmasına görə məsuliyyətin xüsusiyyəti aşağıdıkılardan ibarətdir: belə məsuliyyət neqativ nəticələrin baş verib-verməməsindən asılı olmayaraq, qanunu pozmuş dövlətlərə qarşı yarana bilər. Şəxslərə qarşı isə belə məsuliyyət yanlız zərərçəkənlərin həyatına, sağlamlığına və ya əmlakına zərər vurulduğu halda yarana bilər; cinayət törədildiyi zaman "qanun pozucusunu cəzalandır və ya təhvil ver" prinsipi işləyir, bu da o deməkdir ki, ərazisində mülki aviasiya sahəsində cinayət baş vermiş dövlət milli qanunvericiliyinə əsasən cinayətkara qarşı cəza tədbirlərini tətbiq etməyə məcburdur və ya onu zərərçəkən tərəfə təhvil verməlidir; beynəlxalq məsuliyyət sahəsində, reqress hüququ qüvvədədir; qanunu pozmuş fiziki və ya hüquqi şəxsə qarşı konkret sanksiyalar milli qanunvericiliyin müddəaları ilə müəyyən edilir; qanunu pozmuş dövlətə qarşı yalnız siyasi və ya maddi sanksiyalar tətbiq edilə bilər. BMAK-a üzv-dövlətə qarşı sanksiyaların tətbiq edilməsi üçün əsaslar bu sahədə beynəlxalq standartların pozulması və ya yerinə yetirilməməsidir. Bu halda əsas hətta heç bir nəticələrə səbəb olmadığı halda belə, BMAK-da müəyyən edilmiş qaydaların pozulması faktı hesab olunur.

**III fəsil - "Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hava hüququ normalarının realizasiyası problemləri və perspektivləri"** də üç yarımfəsildən ibarətdir.

***"Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hava-hüquq normalarının realizasiyasının problemləri"*** adlı ***birinci yarımfəsildə*** Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hüquq standartlarının realizasiyası sahəsində hüquqi, kadr və maddi-texniki xarakterli problemlər araşdırılır.

Tədqiqatda hüquqi, kadr və maddi-texniki xarakterli problemlərin bir-birindən ayrılmasının məqsədəmüvafiq olması arqumentlərlə əsaslandırılmışdır. Belə ki, hüquqi xarakterli problemlərdən biri Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyada bir sıra çatışmazlıqların olmasıdır: bəzi müddəaların köhnəlməsi; onların müasir şərtlərə uyğun olmaması (məsələn, Konvensiyanın 5-ci və 7-ci maddələri); Konvensiyanın tələblərinin yerinə yetirilməsini təmin edən effektiv bir mexanizmin olmaması (pozuntuya görə effektiv sanksiyalar). Həmçinin, Azərbaycan Respublikasının mülki aviasiyası sahəsində istifadə edilən anlayışların və milli terminlərin

müvafiq beynəlxalq terminlərlə unifikasiya edilməməsi; mülki aviasiyanın fəaliyyətində ayrı-ayrı məsələlərin (məsələn, məsuliyyət məsələlərinin) tənzimlənməsi sahəsində beynəlxalq-hüquqi aktların normaları və milli qanunvericiliyin müddəaları arasındakı uyğunsuzluq; mülki aviasiya fəaliyyətinin tənzimlənməsi sahəsində beynəlxalq hüquq normalarının sistemsizliy məsələlərini də qeyd etmək olar.

Kadrlar sahəsində beynəlxalq hava hüququ normalarının realizasiyası problemləri aşağıdakılardır: uçuş heyətinin təlimi, yenidən hazırlığı və ixtisasının artırılması sahəsində standartların uyğunsuzluğu; uçuş heyətinin təlim sisteminin və metodlarının köhnəlməsi.

Dissertant maddi-texniki xarakterli problemlərə tərəfindən aşağıdakıları aid etmişdir: Azərbaycan Respublikasında mülki aviasiya sahəsinin kifayət qədər maliyyələşdirilməməsi; aviasiya təhlükəsizliyinin elmi-texniki təminatı sahəsində geriləmə.

Dissertasiyada mülki aviasiya sahəsində fəaliyyətin tənzimlənməsinin effektiv strukturunun yaradılmasına İKAO tələbləri sistemləşdirilmişdir. Bunlara aşağıdakılar aid edilir: dövlət BMAK-da və digər beynəlxalq müqavilələrdə əks olunan bütün öhdəlikləri və hava nəqliyyatının milli sisteminin bütün komponentlərini özünə daxil edən mülki aviasiya fəaliyyəti sahəsində hava qanunvericiliyinə əməl edilməsini təmin etməyə borcludur; Azərbaycan Respublikasının milli tələblərinə uyğun olaraq düzəlişlər edilmiş BMAK-a, onun Əlavələrinə uyğun olan kompleks normativ baza yaradılmalıdır; dövlətin mülki aviasiya sahəsində kadr siyasəti kadrların ixtisaslaşması haqqında İKAO standartlarına uyğun olmalıdır; dövlət hakimiyyət orqanları mülki aviasiya sahəsində təhlükəsizliyin təmin edilməsi məsələləri üzrə tam informasiya ilə təmin olunmalıdırlar.

***“Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hüquq standartlarının realizasiyasında problemlərin yaranmasının səbəbləri və nəticələri”*** adlı ***ikinci yarımfəsil*** Azərbaycan Respublikasının mülki aviasiyasın fəaliyyətində beynəlxalq hüquq normalarının realizasiyasında problemlərin yaranması səbəblərinin və onların nəticələrinin araşdırılmasına həsr olunub.

1991-ci ildən 2016-cı ilə kimi Azərbaycan Respublikasında baş vermiş aviahadisələrin təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, bu cür nəticələrə gətirib çıxaran əsas səbəblər, bir qayda olaraq, hava gəmilərinin texniki nasazlığı və ya gəmi heyətinin ixtisasının kifayət səviyyədə olmamasıdır.

Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq-hüquq standartlarının realizasiya olunmamasının və ya lazımi

qaydada realizasiya olunmamasının neqativ nəticələrinə müxtəlif növ aviasiya hadisələrinə səbəb ola biləcək aviasiya təhlükəsizliyi və uçuş təhlükəsizliyi rejiminin pozulması aid edilir.

İKAO, uçuş təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlətlərə kömək etmək məqsədilə 1999-cu ildə üzv-dövlətlərdə təhlükəsizliyə nəzarətin təşkil edilməsi üzrə Universal Yoxlama Proqramını təsis etmişdir.

Yoxlamalar uçuşların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı dövlət sisteminin kritik ünsürləri kontekstində aparılır. Bunlara müvafiq qanunvericilik və normativ-hüquqi bazasının yaradılması; təşkilati strukturların etibarlılığı; texniki təlimat; işçilərin ixtisası; prosedurların lisenziyalaşdırılması və sertifikatlaşdırılması; müəyyən edilmiş təhlükəsizlik problemləri üzərində daimi nəzarət və onların aradan qaldırılması daxildir.

Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hava-hüquq normalarının realizasiyası sahəsində Azərbaycan Respublikasının hava qanunvericiliyinin müddəalarının yenilənməsi və onun beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması konsepsiyası mövcud deyil. Bundan əlavə, beynəlxalq mülki aviasiyanın inkişaf etdirilməsində özəl sektorun iştirakı səviyyəsi yüksək deyil, mülki aviasiya fəaliyyətinə sərmayələrin cəlb edilməsi və onları təşviqi (müxtəlif vergi və digər imtiyazların tətbiqi) ilə bağlı proqramlar yoxdur.

Aparılmış tədqiqat göstərdi ki, Azərbaycan Respublikasında mülki aviasiyasının fəaliyyətində beynəlxalq hava-hüququ standartlarının realizasiyası problemlərin yaranmasının nəticələri çox əhəmiyyətli ola bilər və təkcə beynəlxalq əməkdaşlığın inkişafında maddi itkilərə, natarazlığa yox, həm də insan itkilərinə gətirib çıxara bilər.

***«Azərbaycan Respublikasında mülki aviasiyasının fəaliyyətində beynəlxalq hava-hüquq normalarının həyata keçirilməsi qaydasının təkmilləşdirilməsi»*** adlı ***üçüncü yarımfəsildə*** Azərbaycan Respublikasında mülki aviasiyasının fəaliyyətində beynəlxalq hava-hüquq normalarının implementasiya olunması qaydasının təkmilləşdirilməsi üzrə konkret tövsiyələr işlənib hazırlanmışdır.

Dissertant 29 dekabr 2012-ci ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin fərmanı ilə təsdiq edilmiş «Azərbaycan – 2020: gələcəyə baxış» inkişaf Konsepsiyasını tədqiq etmişdir. Bu sənəddə həmçinin yerli və xarici daşımaların idarə olunması mexanizminin təkmilləşdirilməsi və ölkə nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiya olunmasının sürətləndirilməsi də nəzərdə tutulur.

Dissertasiyada Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində beynəlxalq hüquq normalarının realizasiyası qaydasının

təkmilləşdirilməsi üçün aşağıdakılar təklif olunur: Azərbaycan Respublikasının mülki aviasiyasının milli inkişaf konsepsiyasını tərtib etmək; Azərbaycan Respublikasının qanunvericiliyinə milli aviasiyanın fəaliyyəti sahəsində beynəlxalq normaların implementasiya olunması mərhələləri proqramını tərtib etmək; mülki aviasiyanın fəaliyyətinə özəl sektorun cəlb edilməsi məqsədilə Azərbaycan Respublikası dövlət proqramını tərtib etmək; mülki aviasiya sahəsində qanunvericilik bazasının sistemləşdirilməsi məqsədi ilə hava qanunvericiliyində tənzimlənən münasibətlərin məzmununu, onun pozulmasına görə məsuliyyəti, hava məkanının istifadəsinin və aviasiya fəaliyyətinin dövlət tənzimlənməsi, aviasiya təhlükəsizliyi məsələləri və s. kimi məsələləri kompleks şəkildə müəyyən edən normativ aktın qəbul edilməsi zəruridir.

İKAO sənədlərinə uyğun olaraq mülki aviasiyanın tənzimlənməsi sahəsində əsas qanunvericilik sənədi aşağıdakıları nəzərdə tutmalıdır: BMAK-a Əlavələrin müddəalarına uyğun olan uçuş qaydalarına əməl etmə; dövlət tərəfindən təhlükəsizlik naminə qəbul edə bilən şərtlərə uyğun olaraq kommersiya uçuşlarının yerinə yetirilməsi tələbi; uçuş qaydaları və müddəalarına əməl edilməmə və ya onları pozma halında tətbiq edilən cəzaların müəyyən edilməsi yolu ilə, uçuş qaydaları və müddəalarına riayət olunmasına nəzarət.

Mülki aviasiyanın fəaliyyətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının milli qanunvericiliyinin beynəlxalq hüquq standartlarına uyğunlaşdırılması məqsədilə müəllif tərəfindən aşağıdakılar təklif olunur: aviasiya təhlükəsizliyinin və uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə dövlət orqanlarının növlərinin nəzərdə tutulmasını zəruri edən və tərkibində "Aviasiya təhlükəsizliyi və uçuşların təhlükəsizliyi" adlı ayrıca bir fəsil olan normativ aktı qəbul etmək; hava qanunvericiliyi ilə tənzimlənən münasibətlərin məzmununu, onun pozulmasına görə məsuliyyəti, hava məkanından istifadənin dövlət tərəfindən tənzimlənməsini, aviasiya fəaliyyətinin tənzimlənməsinin müəyyənləşdirilməsi və s. məsələlər.

**Dissertasiya işinin nəticə hissəsində** hazırki tədqiqatın aparılması nəticəsində əldə edilmiş nəticələr və konkret təkliflər gösrətilmişdir.

**Dissertasiyanın əsas müddəaları müəllif tərəfindən nəşr edilən aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:**

1. Источники гражданского права Азербайджанской Республики // Odlar Yurdu Univer-nin elmi və pedaqoji xəbərləri, Bakı, 2014, s. 106-110

2. Общее в воздушном и космическом праве (в соавторстве с И.О. Кулиевым и З.З.Халиловым) // Матеріали V Международноі

науково-практичноі конференції Юридична наука і практика: виклики часу, 12 березня 2015р., Киів, с. 16-18

3. Классификация международно-правовых норм в сфере регулирования гражданской авиации // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri, № 64, Bakı, 2016, s. 253-257

4. Предпосылка возникновения и развития международной организации гражданской авиации. “Qanun” Elmi hüquq jurnalı, Bakı 2016 № 10 (264), s. 16-20

5. Система средств обеспечения применения международно-правовых норм в деятельности гражданской авиации Азербайджанской Республики. Наука і правоохорона, № 2, Киів 2016, с. 246-250

6. Международно-правовая ответственность за нарушение стандартов в гражданской авиации // Nəqliyyat Hüququ, № 3, Bakı, 2017, s. 207-212

7. Гражданская авиация как объект международно-правового регулирования (в соавторстве с И.О. Кулиевым) // Elmi Məcmuələr, cild 19, № 4, Bakı 2017, s. 52-55

8. Международно-правовая ответственность за нарушение стандартов в гражданской авиации // Февральские чтения. Материалы III Международной Научно-Практической Молодежной Конференции. Творческий потенциал молодежи в решении авиакосмических проблем. Баку, 12-14 февраля 2018 г., с. 284-286

9. Особенности применения международно-правовых норм, регулирующих деятельность в гражданской авиации (в соавторстве с И.О. Кулиевым) // Milli Aviasiya Akademiyasının elmi əsərləri, № 1, 2018, s. 142-152

# РЕЗЮМЕ

## Нагиева Лала Мехти гызы
## Проблемы реализации международных воздушно-правовых норм в деятельности гражданской авиации Азербайджанской Республики

Диссертационная работа Нагиевой Лалы Мехти гызы, представленная на соискание ученой степени доктора философии по праву по специальности: 5603.01 – «Международное право; права человека» является актуальным, самостоятельным и завершенным научным исследованием.

Диссертационная работа состоит из введения, трех глав, включающих в себя 9 параграфов, заключения и списка литературы.

Во введении обоснована актуальность темы, определены цель, основные задачи, методологическая основа и значимость работы, показана степень разработанности проблемы, изложена научная новизна диссертации, сформулированы выносимые на защиту основные положения, показаны результаты апробации работы.

Глава I - «Общая характеристика международно-правового регулирования гражданской авиации» состоит из трех параграфов, в которых исследованы понятие и элементы деятельности гражданской авиации как объекта международно-правового регулирования, определены роль и значение международно-правовых норм в деятельности гражданской авиации.

Глава II под названием «Особенности реализации международных воздушно-правовых норм в деятельности гражданской авиации Азербайджанской Республики» состоит из трех параграфов. В ней исследуются формы и средства обеспечения реализации международно-правовых норм в деятельности гражданской авиации Азербайджанской Республики, а также особенности ответственности за их нарушение международных норм и стандартов в сфере гражданской авиации.

В главе III под названием «Проблемы и перспективы реализации международных воздушно-правовых норм в деятельности гражданской авиации Азербайджанской Республики», состоящей из трех параграфов, исследуются проблемы реализации международных воздушно-правовых норм в деятельности гражданской авиации Азербайджанской Республики, причины возникновения таких проблем и их последствия, а также выдвигаются конкретные рекомендации по совершенствованию порядка реализации таких международных воздушно-правовых норм.

В заключении диссертации получили свое отражение важные предложения и выводы, полученные по результатам исследования.

## SUMMARY

**Nagiyeva Lala Mehdi**

**Problems of implementation of international air law norms in the activities of civil aviation of the Republic of Azerbaijan**

The thesis (dissertation work) of Lala Mehdi Nagiyeva, submitted for the degree of Doctor of Philosophy in law, specialty: 5603.01 – "International law; human rights" is relevant, complete and independent scientific research.

The thesis consists of introduction, three chapters, which include 9 paragraphs, conclusion and list of references.

In the introduction, the relevance of the research topic is substantiated, the purpose, main tasks, methodological basis and significance of the work are determined, the degree of elaboration of the problem is shown, the scientific novelty of the thesis is presented, the main provisions for the defense are formulated, and the results of the scientific testing are shown.

Chapter I consists of three paragraphs, in which the concept and elements of civil aviation are investigated as an object of international legal regulation, the legal nature and types of international legal norms regulating civil aviation are considered, and also the role and importance of international legal norms are defined in the activity of civil aviation.

Chapter II also consists of three paragraphs. It examines the forms and means of of enforcement the implementation of international air law norms in the activities of civil aviation of the Republic of Azerbaijan, as well as the specifics of responsibility for violation of international legal standards in the field of civil aviation.

Chapter III, consisting of three paragraphs, are examines the problems of implementing international aviation law in the activities of civil aviation of the Republic of Azerbaijan, the causes and consequences of such problems, as well as specific recommendations for improving the implementation of such international legal norms.

In the final part of the thesis marked important proposals and conclusions resulting from the study.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ЛАЛА МЕХТИ гызы НАГИЕВА**

# ПРОБЛЕМЫ РЕАЛИЗАЦИИ МЕЖДУНАРОДНЫХ ВОЗДУШНО-ПРАВОВЫХ НОРМ В ДЕЯТЕЛЬНОСТИ ГРАЖДАНСКОЙ АВИАЦИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальность: 5603.01 – «Международное право; права человека»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации, представленной на соискание
ученой степени доктора философии по праву**

**БАКУ – 2018**

*Çapa imzalanmışdır 08.11.2018.*
*Kağız formatı 60x84 1/16. Sayı 100.*

*«Bakı Universiteti Nəşriyyatı», Bakı, AZ 1148, Z.Xəlilov, 23.*